**Moskva və bütün Rusiyanın Patriarxı KİRİLLİN**
**Arxipastırlara, keşişlərə, dyakonlara, rahiblərinə və**
**Rus Pravoslav Kilsəsinin bütün sadiq övladlarına**
**Milad müraciəti**

**Əziz Arxipastır Həzrətləri, möhtərəm atalar, diakonlar, Tanrının sevimli rahib və rahibələr, əziz qardaş və bacılar!**

Tanrımız və Xilaskarımız İsa Məsihin Miladı münasibəti ilə sizin hamınızı ürəkdən təbrik edirəm.

İki min ildən çox bundan əvvəl baş vermiş Tanrının insan simasında təcəssüm etmə möcüzəsi bu gün də qəlblərimizi ağlasığmaz dərəcədə sevinclə doldurur. O gün ki, *Tanrı yer üzünə endi və insan isə səmalara merac etdi* (bayram gecəsində oxunan ilahi nəğmədən bir sətir). Hər şeyin Xaliqi və Rəbbi dünyada təzahür etdi, çünki Öz Mərhəməti ilə *iblisin şərrindən əzab çəkən insanları görmək onun üçün çox ağır idi* (müqəddəs Xaç suyuna salma duası); insanlara sevgisi qarşısında dura bilməyib O Əzəli və Bənzərsiz olan Kəs azmış məxluqunu axtarmaq üçün gəldi (itmiş dirhəm haqqında hədisə prp. Roman Sladkopevtsin kondakı).

Tanrı Sözünün ulu daşıyıcılarının möcüzəli məlahimləri (gələcəkdən verdikləri xəbər) doğru çıxdı və min illərlə xilas olmağı və nicat tapmağı gözləmiş, günah yükünün altında əyilərək inildəyən, lənətin ağırlığında təkcə dünya həyatında deyil, dünyadan köç edib getdikdən sonra da əziyyət çəkən bəşər qarşısında səmanın qapıları açıldı. *Bakirə çiçəkli Xanımdan Tanrımız İsa Məsih cismini qəbul etdi* (Müqəddəs Tanrı Anası kanonu) və *odlu qılıncı ilə cənnətin qapısını qoruyan baş mələk həyat ağacından kənar oldu* (bayram gecəsində oxunan ilahi nəğmədən bir sətir). İlahi Körpə aləmləri xilas etmək üçün doğuldu, *qanuna tabe olanların günahlarının yuyulması və bizim o ovladığı qazanmamız üçün qanuna tabe oldu* (Qal. 4, 4 - 5).

Tanrı sadəliyi qavranmalı, dərk olunmalı deyil: Aləmlərin Qüdrətli Sahibi olaraq O insanlara aciz, köməksiz körpə simasında gəldi, Tanrı olsa da, fani bədəni qəbul edib dünya həyatının məşəqqətlərinə dözməli oldu, Ölümsüz olsa da, öz iradəsi ilə, əzablı və alçaldıcı ölümə doğru addımladı. O bunu təkcə seçilmişlərin – peyğəmbərlərin və salehlərin, ona sədaqətlə xidmət edənlərin, xatirinə etmir. Məsih hər birimizin xətrinə gəlmişdir, O istisnasız olaraq hamının – günahkarların və cinayətkarların, biganələrin və fərsizlərin,

qorxaqların və kinlilərin, hətta Öz qatillərinin də xilas olması naminə gəlmişdir!

Tanrı heç kəsdən imtina etmir, heç kəsə yuxarıdan aşağı baxmır, əksinə bizim insan cismimizi qəbul edir, O Tanrıdan insana çevrilməklə, xaçda çəkiləcək əzablarla və həyat daşıyan Dirilişlə yeniləyir, o bədəni Müqəddəs Üçlüyün aləminə qaldırır, Tanrı Ərşinin əzəməti ilə müqəddəs tutur. Biz də Yevxaristiya Sirrində - Məsihin bu Həyat Bəxş edən Cisminin, bizim hər birimizin naminə tökülmüş o Pak Qanının bir hissəsinə, bir parçasına, bir damcısına  çevrilərək təkcə Xilaskarla deyil, həm də bir-birimizlə eyni bədən, eyni qan daşıyıcısına çevrilirik.

Amma, təəssüf ki, bu gün biz nizamsızlıq dalğalarının Kilsə gəmisini necə çalxaladığının, fitnə-fəsad və ziddiyyətlər qasırğasının imanlı pravoslav insanların vəhdətini necə silkələdiyinin, düşmənin və azdırıcının aldatdığı insanların bədniyyətli küfr bulağının bulanıq və yararsız suyunu canlı Həyat suyundan necə üstün tutduğunun (I Kainat soborunun müqəddəs atalara kanonu) şahidi oluruq. Belə bir ağır zamanda hər birimiz yadda saxlamalıyıq ki, Tanrı bizim hər birimiz üçün doğulmuş və çarmıxa çəkilmişdir, O, Yer üzündə Vahid, Müqəddəs, Sobor və Həvari Kilsəsinin əsasını qoymuşdur. Kilsəyə mənsub insanlar olaraq biz nizamsızlığın, qarşıdurmaların və münaqişələrin qarşısını almalı, dağınıqlığı aradan qaldırmalı, müharibə dəhşətlərindən, təqiblərdən və ədalətsizlikdən əziyyət çəkən insanlara kömək etməliyik.

Tanrı şah saraylarında yox, çox kasıb bir mağarada dünyaya gəlir. Elə bilirsən ki, bundan aşağı dolanışıq və heyvan üçün bağat yoxdur? Var, günahın məhv etdiyi, yandırıb külə döndərdiyi, Tanrısından uzaq düşmüş, istiliyi - soyuqluğu bilinməyən, suyu sovrulmuş dəyirman kimi bomboş, nəfsin köləsinə çevrilmiş insan qəlbi. Amma biz qəlbimizi Tanrının məkanına çevirmək, Tanrının bizə çox yaxın olduğunu yada salmaq, hər an qəlbimizin qapısını döydüyünü anlamaq, bizim nəhayət bir gün Onun çağırışlarına qulağımızı açıb Onu qəlb evimizə buraxacağımızı, Ona həyatımızda yer verəcəyimizi və Onun sevgisinə sevgi ilə cavab verəcəyimizi və Ona bizim daxilimizi dəyişməyə icazə verməyimizi səbrlə gözlədiyini dərk etmək iqtidarındayıq.

Bütün dünya Xilaskarın şanlı miladını bayram edir: mələklər sənalar oxuyur, çobanlar şənlənir, munəççimlər isə Ona sitayiş edir və qurbanlar gətirir, yalnız İrodun qəzəbli və həsədlə dolu qəlbi İlahi həqiqəti qəbul etmək istəmir, sevinmir, fərəhlənmir, amma əsir – Tanrı xofundan yox, qorxaqlığından. Gəlin düşünək, biz əməllərimizlə özümüzü ona oxşatmırıqmı, öz rahatlığımızı və xoş güzəranımızı önə çəkmirikmi, kiminsə bizdən daha ağıllı və istedadlı olmasından qorxmuruqmu, onu incitməklə, başqalarının

yanında alçaltmaqla, onu layiq olduğu yerdən yıxıb özümüz onun yerini tutmağa can atmaqla belə bir insana zülm etmirikmi? Beləliklə biz Tanrının özü və Onun Müqəddəs ehkamlarını deyil, özümüzü həqiqət mənbəyinə çevrilmirikmi? Özümüzə sərf edən düşüncələrimizi həqiqət kimi qələmə verməklə başqalarını yoldan çıxarmırıqmı, Məsihin libasını öz həva- həvəs davamızla cırıb atmırıqmı, iman qardaşlarımızın arasında nifaq və ədavət toxumu səpmirikmi?

Bu gün tanrı Körpə Məsihə baxa-baxa, özümüzü Tanrı həqiqətləri ilə üz-üzə qoyaraq nəfsin yükünü və bizi boğan günahın ağırlığını çiynimizdən atmalıyıq (Yevr. 12, 1), Pravoslavlığın vəhdətinin möhkəmlənməsi və sevginin artması haqqında isti dualarımızı səmalara yollayaq, unutmayaq ki, sevgi rəhm edəndir, həsəd edən yox, özünü üstün tutan deyil, özü üçün axtarmır, şərr düşünmür, yalana sevinmir; hər şeyi ehtiva edir və hər şeyə imanlıdır (1 Kor. 13, 4 – 7).

İlahiyyatçı bayram mətnlərində təkcə bizim xilasımız üçün doğulmuş Tanrının şəninə sənalar oxunmur, həmçinin Onun insan simasında dünyaya gətirmiş Müqəddəs Məryəm Xanım, övliya Yusif, müqəddəs atalara da dualar oxunur. Bu müqəddəs gündə öz əzizlərimizi yada salaq, valideynlərimizi və dostlarımızı ziyarət edək, onlara diqqət yetirək, şirin sözlər deyək, bizim üçün etdikləri hər bir şeyə görə onlara minnətdarlıq edək. Qoy Mərhəmətli, Əbədi və Dərk olunmaz, Gözəgörünməz Ata ilə vəhdətdə olan Məsih Tanrıya və yaxınlarımıza sevgi ilə dolu olan qəlbimizdə qərar tutsun (bayram axşamında oxunan nəğmələrdən). Amin.

**MOSKVANIN  VƏ BÜTÜN RUSİYANIN PATRIARXI**

*İsa Məsih*
*Miladı2019 /*
*2020-ci il.*
*Moskva*